**«TƏSDİQ EDİLMİŞDİR»**
Azərbaycan Respublikasının Prezidenti
yanında Qiymətli Kağızlar üzrə Dövlət
Komitəsi Əmr 189
«22» noyabr 2000-cı il
Sədr _______________ H. Babayev

# Azərbaycan Respublikasının qiymətli kağızlar bazarında qanun pozuntularının aradan qaldırılması və investorların hüquqlarının müdafiəsi üzrə nəzarətin həyata keçirilməsi Qaydaları

I.Ümumi müddəalar.

1. Bu Qaydalar Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi, «Qiymətli Kağızlar haqqında» Azərbaycan Respublikası Qanunu, «Qiymətli kağızlar bazarında investorların hüquqlarının müdafiəsi haqqında» Azərbaycan Respublikası Qanunu, «İnvestisiya fondları haqqında» Azərbaycan Respublikası Qanunu, Azərbaycan Respublikası Prezidentinin «Qiymətli kağızlarla fəaliyyət sahəsində bəzi fəaliyyət növlərinnin lisenziyalaşdırılması qaydalarının təsdiq edilməsi haqqında», «Azərbaycan Respublikası Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin fəaliyyətinin təmin edilməsi haqında», «Qiymətli kağızlar bazarında investorların hüquqlarının müdafiəsi haqqında» Azərbaycan Respublikası Qanunun tətbiq edilməsi barədə» Fərmanları, Azərbaycan Respublikası Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi haqqında Əsasnamə və QKDK tərəfindən qəbul edilmiş aktlar əsasında hazırlanmışdır.

2. Bu Qaydalar Azərbaycan Respublikası Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi tərəfindən Azərbaycan Respublikasının qiymətli kağızlar bazarında qanun pozuntularının aşkar edilməsi, təqsirli şəxslərin müəyyən edilməsi, qanun pozuntularının aradan qaldırılması, onların qarşısının alınması, investorların pozulmuş hüquqlarının bərpa edilməsi məqsədi ilə qiymətli kağızlar bazarı iştirakçılarının fəaliyyəti üzərində və Azərbaycan Respublikasının qanunvericiliyi ilə QKDK-nın səlahiyyətinə aid edilən məsələlər üzrə dövlət nəzarəti tədbirlərinin həyata keçirilməsi qaydalarını müəyyən edir.

3. Dövlət nəzarəti tədbirlərinə qiymətli kağızlar bazarı iştirakçılarından hesabatların, digər sənədlərin və məlumatların sorğu edilib alınaraq onların öyrənilməsi və təhlil edilməsi, qiymətli kağızlarla əməliyyatlar və investorların hüquqları ilə bağlı məsələlər üzrə yoxlamaların aparılması, onların vəzifəli şəxsləri və digər əməkdaşlarından araşdırılan məsələlər üzrə izahatların alınması,

onlara icrası məcburi olan tələbnamə və göstərişlərin verilməsi, qanun pozuntusu törətmiş şəxslərin inzibati məsuliyyətə cəlb edilməsi, onlara qarşı mülki iddiaların qaldırılması, peşəkər fəaliyyətin həyata keçirilməsi üçün xüsusi razılığın ( lisenziyanın) dayandırılması, ləğv edilməsi, qiymətli kağızlarla bağlı əməliyyatların aparılmasının məhdudlaşdırılması, qadağan edilməsi və qanunvericiliklə müəyyən edilmiş digər hüquqi hərəkətlər aiddir.

4. Qaydaların müddəaları Azərbaycan Respublikasının qiymətli kağızlar bazarının iştirakçıları olan: hüquqi şəxslərə, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslərə, dövlət idarəçilik orqanlarına, vəzifəli şəxslərə, bələdiyyələrə, ictimai birliklərə və vətandaşlara şamil edilir.

5. Dövlət nəzarəti üzrə müvafiq tədbirlərin həyata keçirilməsi üçün əsaslara QKDK-nın təşəbbüsü, qiymətli kağızlar bazarının subyektlərinin hesabatlarının təhlili, dövlət və yerli özünüidarəetmə orqanlarının məlumatları, hüquqi və fiziki şəxslərin ərizələri aiddir.

II. Nəzarət tədbirlərini həyata keçirən orqanlar.

6. Nəzarət tədbirləri QKDK-nın mərkəzi aparatının, struktur və regional bölmələrinin əməkdaşları tərəfindən həyata keçirilir.

7. Nəzarət tədbirlərinin keçirilməsi məqsədilə QKDK-nın sədri, yaxud regional bölməsinin rəhbəri tərəfindən zəruri hallarda bir neçə şəxsdən ibarət komissiya yaradıla bilər. Əmakdaşlardan biri komissiyanın rəhbəri təyin edilir və komissiyanın işinə rəhbərlik edir.

8. QKDK nəzarət subyektlərinə sorğu edərək zəruri sənədlərin öyrənilməsi üçün verilməsini tələb edə bilər. Sorğu məktubun yoxlanılan şəxsə verildiyi gündən 10 gün ərzində tələb edilən sənədlər QKDK-ya təqdim edilməlidir.
Obyektiv səbəblərə görə sorğunu icra etmək mümkün olmadıqda, bu barədə QKDK-ya həmin müddətdə rəsmi məlumat verilir.

III. Qiymətli kağızlar bazarının iştirakçısının yerində yoxlanması.

9. Qiymətli kağızlar bazarı iştirakçılarının bilavasitə fəaliyyət yerində yoxlamaların aparılması üçün QKDK əməkdaşlarına bu səlahiyyəti müəyyən edən müvafiq sənəd- yoxlama vəsiqəsi verilir.

10. Yoxlama zamanı yoxlayıcının yoxlama vəsiqəsini təqdim etməklə yoxlanılan şəxsin xidməti ərazisində və binasına sərbəst daxil olmaq hüquqi vardır. Yoxlanılan şəxs həmin hüququn həyata keçirilməsi üçün şərait yaratmalıdır.

11. Qiymətli kağızların inventarlaşdırılmasının keçirilməsi lazım olduqda, yoxlayıcının tələbi ilə yoxlanılan şəxs tərəfindən komissiya yaradılır və özünün iştirakı ilə inventarlaşma aparılıb nəticəsi üzrə akt tərtib edilir.

12. Yoxlamanın keçirilməsi yoxlanılan şəxsin təsərrüfat fəaliyyətinin həyata keçirilməsinə maneçilik törətməməlidir.

13. Yoxlayıcı yoxlanılan şəxsin kommersiya sirrləri barədə yoxlama zamanı ona məlum olmuş məlumatların gizli saxlanmasını təmin etməlidir.

IV. Yoxlamanın nəticələrinin rəsmiləşdirilməsi.

14. Yoxlamanın nəticələri üzrə yoxlayıcı tərəfindən 2 nüsxədə akt tərtib edilir. Aktda yoxlamanın yeri, vaxtı, əsasları, iştirakçıları, obyekti, predmeti, xüsusiyyətləri, müəyyən edilmiş xüsusatlar, nəticələri haqqında məlumatlar müfəssəl əks olunur. Akt yoxlayıcı, yaxud yoxlama komissiyanın bütün üzvləri tərəfindən imzalanır. Komissiya üzvü öz xüsusi mövqeyini ( rəyini) yazılı formada akta əlavə edə bilər.

Yoxlanılan şəxs aktla tanış olub, onu imzalayır və onun məzmunu üzrə yazılıi zahat və qeydlərini akta əlavə olunmaq üçün təqdim edə bilər.

Yoxlanılan şəxsin akt ilə tanış olmaqdan və öz qeydlərini etməkdən imtina etməsi barədə aktda yoxlayıcı tərəfindən qeyd olunur. Aktın 1 nüsxəsi yoxlanılan şəxsə verilir.

15. Akt və ona əlavə olunan sənədlər QKDK-nın sədri, onun müavinlərinə, yaxud QKDK-nın struktur və regional bölməsinin rəhbərliyinə təqdim olunur, onların tərəfindən yoxlamanın nəticələri üzrə müvafiq tədbirlər görülür.

16. Yoxlama nəticəsində təqsirli şəxslərin məsuliyyətə cəlb edilməsi üzrə tədbirlər barədə məlumat QKDK-nın məlumat bazasına daxil edilir.

17. Zəruri olduqda yoxlama materialları müvafiq tədbirlərin görülməsi üçün hüquq mühafizə və məhkəmə orqanlarına göndərilə bilər. Belə hallarda, görülmüş tədbirlər və onların nəticələri barədə QKDK-ya məlumat verilməlidir.

18. Yoxlama materialları işə tikilir və QKDK-nın arxivində saxlanılır.

V.Məsuliyyət.

19. Bu Qaydalarda müəyyən olunmuş müddəaları pozan şəxslər qanunvericiliyə müvafiq olaraq məsuliyyət daşıyırlar.

VI. Qüvvəyə minmə qaydası.

20. Bu Qaydalar təsdiq edildiyi gündən qüvvəyə minir.